| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 02.02.2015 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 21 |
| **ADI** | “Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası”nın təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 08-02-2015, Nəşr nömrəsi: 30), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2015, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 211) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 08.02.2015 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 340.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14201502020021 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 10.02.2015 |

# “Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının 4.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 2 fevral 2015-ci il
21

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2015-ci il 2 fevral tarixli 21 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası

### 1. Ümumi müddəalar

1.1. “Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası” (bundan sonra - Qayda) “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının 4.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

1.2. Bu Qayda *Azərbaycan Ordusuna* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə*, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)* həqiqi hərbi xidmətə bağlaşma əsasında könüllü daxil olan Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə şamil edilir. [1]

### 2. Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları

2.1. *Azərbaycan Ordusunda* və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə*, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)* ştat üzrə vəzifələrə uyğun olaraq həqiqi hərbi xidmət keçmək üçün “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 36-cı maddəsinə əsasən müəyyən edilmiş tələblərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olurlar. [2]

2.2. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 3.4-cü maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 23 noyabr tarixli 276-18 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası qadın vətəndaşlarının hərbi uçot ixtisaslarının Siyahısı”na əsasən hərbi uçot ixtisası olan 19 yaşından 40 yaşınadək Azərbaycan Respublikasının qadın vətəndaşları özlərinin razılığı ilə hərbi qeydiyyata götürülür və bağlaşma əsasında *Azərbaycan Ordusunda* və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə*, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)* hərbi xidmətə qəbul edilirlər.

2.3. Azərbaycan Respublikasının vətəndaşları, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bağlaşma əsasında həqiqi hərbi xidmətə bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanlarının və ya hərbi hissələrin təşkilati-ştat strukturu üzrə vakant vəzifələr olduğu hallarda qəbul edilirlər.

2.4. Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxil olan şəxslər fiziki hazırlıqlı, mənəvi-psixoloji cəhətdən sağlam, hərbi xidmət keçəcəyi ixtisas üzrə bilikli və ən azı ümumi orta təhsilli olmalıdırlar.

2.5. Həqiqi hərbi xidmətə könüllü daxil olmaq arzusunu bildirmiş şəxslər həqiqi hərbi xidmətə daxil olarkən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli qərarı ilə təsdiq edilmiş “Hərbi-həkim ekspertizası haqqında Əsasnamə”yə uyğun olaraq tibbi müayinədən keçir və şəhadətləndirilirlər.

*2.5-1. Bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar bağlaşma imzalanmazdan əvvəl bağlaşma bağladıqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən icbari narkoloji müayinədən keçirilirlər.* [3]

2.6. Həqiqi hərbi xidmətə könüllü daxil olmaq istəyən qanunla müəyyənləşdirilən müddətli həqiqi hərbi xidməti başa çatdırmış hərbi qulluqçulara, hərbi vəzifəlilərə və hərbi qeydiyyatda olmayan qadınlara bu Qaydanın 3.4-cü və 3.5-ci bəndlərində nəzərdə tutulmuş sənədlər əsasında şəxsi iş tərtib edilir.

2.7. Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu Qaydanın 3.6-cı bəndində nəzərdə tutulmuş sənədlər əsasında şəxsi iş tərtib edilir.

2.8. Həqiqi hərbi xidmətə qəbul üçün müəyyən edilmiş tələblərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları ilə, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə *Azərbaycan Ordusu* və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr*, habelə Azərbaycan Respublikasının*

*Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar)* arasında onların həqiqi hərbi xidmətə daxil olmasına dair bağlaşma tərtib edilir. [4]

2.9. Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxil olan şəxslərin müəyyən olunmuş tələblərə uyğun olaraq həqiqi hərbi xidmətə qəbul və ya imtina edilməsinə dair rəyin verilməsi bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanlarına və ya hərbi hissələrə həvalə edilir.

2.10. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsinə uyğun olaraq bağlaşma əsasında aşağıdakı həqiqi hərbi xidmətlərə könüllü daxil olurlar:

2.10.1. müddətdən artıq həqiqi hərbi xidmətə - ən azı ümumi orta təhsili olan, qanunla müəyyənləşdirilən müddətli həqiqi hərbi xidməti başa çatdırmış hərbi qulluqçular, 40 yaşınadək hərbi vəzifəlilər (zabitlər, gizirlər və miçmanlar istisna olmaqla), habelə 19 yaşından 40 yaşınadək qadınlar;

2.10.2. *hərbi qulluqçu hazırlayan* xüsusi təyinatlı ali təhsil müəssisələrinin kursantlarının həqiqi hərbi xidmətinə - xüsusi təyinatlı ali təhsil müəssisəsinə qəbul edildiyi ildə 17 yaşı tamam olan və *20* yaşı tamam olmayan vətəndaşlar, habelə zabit hərbi rütbəsi olmayan, xüsusi təyinatlı ali təhsil müəssisələrində oxumaq arzusunu bildirən 18 yaşından 23 yaşınadək hərbi qulluqçular *və hərbi vəzifəlilər*; [5]

2.10.3. gizirlərin və miçmanların həqiqi hərbi xidmətinə - ən azı tam orta təhsilli, azı bir il hərbi xidmət keçmiş əsgərlər, matroslar, çavuşlar, 40 yaşınadək hərbi vəzifəlilər (zabitlər istisna olmaqla), habelə 19 yaşından 40 yaşınadək qadınlar;

2.10.4. zabitlərin həqiqi hərbi xidmətinə - hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan zabitlər, habelə ilk zabit hərbi rütbəsi verilməklə 35 yaşınadək həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular, ehtiyatda olan hərbi vəzifəlilər və qadınlar.

## 3. Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın qaydası

3.1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə, ~~*Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə,*~~ Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, *Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə,* Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, *Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinə, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinə*, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə *və Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna* həqiqi hərbi xidmətə fərdi qaydada könüllü daxil olmaq istəyən həqiqi hərbi xidmət hərbi qulluqçularının, hərbi vəzifəlilərin və hərbi qeydiyyatda olmayan qadınların, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin seçilməsini, sənədlərin toplanılmasını və şəxsi işlərin tərtib edilməsini həmin dövlət orqanlarının kadr aparatları həyata keçirirlər. [6]

3.2. Hərbi qeydiyyatda olmayan qadınlar özlərinin razılığı ilə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli *baş idarə,* idarə, şöbə və ya bölməsi tərəfindən hərbi qeydiyyata götürülürlər. Hərbi qeydiyyata götürülmüş Azərbaycan Respublikasının qadın vətəndaşlarına, həmçinin *hərbi qulluqçu hazırlayan* xüsusi təyinatlı ali təhsil müəssisələrinin kursantlarına hərbi bilet verilir.[7]

3.3. Zərurət yarandığı halda, bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanlarının və ya hərbi hissələrin tələbnamələrinə (sifarişlərinə) uyğun olaraq, bağlaşma əsasında həqiqi hərbi xidmətə qəbul edilməsi üçün seçilmiş hərbi vəzifəlilərin və hərbi qeydiyyatda olmayan qadınların sənədləri əsasında onların şəxsi işlərinin tərtib edilməsi və aidiyyəti üzrə göndərilməsi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli *baş idarə,* idarə, şöbə və bölmələri tərəfindən həyata keçirilir.

3.4. Şəxsi iş tərtib edilməsi üçün bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanlarına və ya hərbi hissələrə aşağıdakı sənədlər (müvafiq dövlət orqanları tərəfindən xidmətə (qulluğa) qəbul edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş sənədlərdən başqa) təqdim edilir:

3.4.1. şəxsiyyəti təsdiq edən sənəd;

3.4.2. ərizə və ya raport;

3.4.3. şəxsən yazılmış tərcümeyi-hal;

3.4.4. xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;

3.4.5. təhsil haqqında sənədin surəti;

3.4.6. doğum haqqında şəhadətnamənin surəti;

3.4.7. nikah haqqında şəhadətnamənin surəti (evli olduqda);

3.4.8. uşaqların doğum haqqında şəhadətnamələrinin surəti (uşaq olduqda);

3.4.9. 4 ədəd (başıaçıq, anfas) 3x4 sm ölçüdə və 2 ədəd 9x12 sm ölçüdə fotoşəkil (kursantların həqiqi hərbi xidmətinə daxil olanlar üçün 4,5x6 sm ölçüdə);

3.4.10. məhkumluğun olub-olmaması barədə arayış.

3.5. Həqiqi hərbi xidmətə könüllü daxil olmaq istəyən şəxslər üçün tərtib edilmiş şəxsi işlərə bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanları və ya hərbi hissə tərəfindən əlavə olunan sənədlər aşağıdakılardır:

3.5.1. sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olması barədə müvafiq hərbi-həkim komissiyasının qərarı;

3.5.2. rejim obyektlərində işə buraxılışı rəsmiləşdirmək üçün sənədlər.

3.6. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən bu Qaydanın 3.4.1-ci, 3.4.2-ci, 3.4.5-ci, 3.4.9-cu yarımbəndlərində göstərilmiş sənədlər təqdim edilir.

3.7. Bağlaşma əsasında könüllü həqiqi hərbi xidmətə qəbulla bağlı bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanları və ya hərbi hissələr tərəfindən aşağıdakı tədbirlər həyata keçirilir:

3.7.1. ailə tərkibi və yaşayış yerinin yoxlanılması;

3.7.2. tibbi şəhadətləndirmənin keçirilməsi (Hərbi-həkim komissiyası);

*3.7.2-1. icbari narkoloji müayinənin keçirilməsi;*
3.7.3. peşə-psixoloji seçim üzrə tədbirlərin keçirilməsi;
3.7.4. bilik, bacarıq (qəbul olunacaq ixtisasa uyğun) və fiziki hazırlıq səviyyəsinin həqiqi hərbi xidmətə qəbul üçün müəyyən edilmiş tələblərə cavab verməsinin yoxlanılması.
3.8. Peşə psixoloji seçim üzrə tədbirlər bu sahə üzrə mütəxəssislər tərəfindən aparılır. Bu zaman namizədlərdə aşağıdakılar qiymətləndirilir:
3.8.1. intellektual inkişafın səviyyəsi;
3.8.2. hərbi xidmət keçməyə psixoloji cəhətdən hazırlıq dərəcəsi;
3.8.3. dərketmə qabiliyyəti (qavrama);
3.8.4. məntiqli düşünmə qabiliyyəti;
3.8.5. ünsiyyət yaratmaq bacarığı.
3.9. Bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanları və ya hərbi hissələr tərəfindən bağlaşmanın imzalanmasından aşağıdakı hallarda imtina edilir:
3.9.1. ikili vətəndaşlığı və ya digər dövlətlər qarşısında öhdəlikləri olduqda (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla);
3.9.2. məhkumluğu ödənilmədikdə və ya üzərindən götürülmədikdə, həmçinin ağır və ya xüsusilə ağır*, habelə hərbi xidmət əleyhinə* cinayət törətdikdə;[8]
3.9.3. təqdim edilən sənədlərdə təhrif olunmuş məlumatların qeyd edilməsi aşkar olunduqda;
3.9.4. Hərbi-həkim komissiyası tərəfindən keçirilən tibbi şəhadətləndirmənin nəticəsinə görə həqiqi hərbi xidmətə yararsız hesab edildikdə;
*3.9.4-1. icbari narkoloji müayinənin keçirilməsi zamanı narkotik vasitələrin, psixotrop maddələrin və ya onların analoqlarının istehlak olunması aşkar edildikdə;*
3.9.5. peşə psixoloji seçimdən keçmədikdə;
3.9.6. bilik, bacarıq və fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş tələblərə cavab vermədikdə;
3.9.7. öyrənilmə tədbirləri keçirilən zaman həqiqi hərbi xidmətə qəbula mane olan digər hallar müəyyən edildikdə.
3.10. Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxil olmaq arzusunu bildirmiş şəxs bağlaşma imzalananadək öz istəyindən imtina edə bilər.
3.11. Bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanları bu Qaydanın 2.10-cu bəndində nəzərdə tutulmuş tələblərə cavab verməyən, bağlaşma əsasında həqiqi hərbi xidmətə daxil olmaq arzusunu bildirmiş Azərbaycan Respublikasının vətəndaşları ilə, həmçinin əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə bağlaşmadan imtina edirlər.
3.12. Həqiqi hərbi xidmətə daxil olmaq arzusunu bildirmiş Azərbaycan Respublikasının vətəndaşları həqiqi hərbi xidmətə könüllü daxil olduqda, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə" və bu Qayda ilə tanış edildikdən sonra, onlarla *Azərbaycan Ordusu* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr*, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar)* arasında həqiqi hərbi xidmətə daxil olmağa dair bağlaşma eyni hüquqi qüvvəyə malik üç əsl nüsxədən ibarət tərtib edilir (bu Qaydaya 1 nömrəli əlavə). Bağlaşmanın bir nüsxəsi hərbi xidmətə daxil olan şəxsə verilir, digər nüsxəsi (nüsxələri) isə bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanının aidiyyəti qurumunda saxlanılır.
3.13. Həqiqi hərbi xidmətə daxil olmaq arzusunu bildirmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər həqiqi hərbi xidmətə könüllü daxil olduqda "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hərbi xidmətkeçmə haqqında Əsasnamə" və bu Qayda ilə tanış edildikdən sonra, onlarla *Azərbaycan Ordusu* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr*, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar)* arasında həqiqi hərbi xidmətə daxil olmağa dair öhdəlik eyni hüquqi qüvvəyə malik iki əsl nüsxədən ibarət tərtib edilir (bu Qaydaya 2 nömrəli əlavə).
3.14. Tərtib edilmiş bağlaşma bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanlarının səlahiyyətli vəzifəli şəxsləri tərəfindən imzalanır.
3.15. Həqiqi hərbi xidmətə könüllü daxil olmuş Azərbaycan Respublikasının vətəndaşları Azərbaycan Respublikasına və onun xalqına sadiq olacaqları barədə hərbi and içirlər.
3.16. Əvvəllər başqa dövlətin silahlı qüvvələrində xidmət etmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər bağlaşma əsasında Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətə daxil olarkən, hərbi andın yerinə Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl edəcəkləri barədə öhdəlik götürürlər.
3.17. Bağlaşma hər iki tərəf imzaladıqdan sonra qüvvəyə minir. Şəxsin həqiqi hərbi xidmətə qəbul edilməsi barədə şəxsi heyət üzrə əmr verilir. Bağlaşma əsasında hərbi xidmətə könüllü daxil olanların həqiqi hərbi xidmətinin başlanğıcı bağlaşmanın imzalandığı gün hesab edilir.
3.18. Bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanları və ya hərbi hissələr tərəfindən bağlaşma əsasında həqiqi hərbi xidmətə qəbul edilmiş hərbi vəzifəlilər və hərbi qeydiyyatda olan Azərbaycan Respublikasının qadın vətəndaşları barədə şəxsi heyət üzrə əmrlərdən çıxarışların bir nüsxəsi və ya məktub hərbi qeydiyyatdan çıxarılması üçün onların hərbi qeydiyyatda olduqları Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli *baş idarə,* idarə, şöbə və bölmələrinə göndərilir.
3.19. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli *baş idarə*, idarə, şöbə və bölmələri tərəfindən bağlaşma əsasında hərbi xidmətə qəbul edilmiş hərbi vəzifəlilərin və hərbi qeydiyyata götürülmüş Azərbaycan Respublikasının qadın vətəndaşlarının hərbi biletləri onların hərbi qeydiyyatdan çıxarılması barədə qeydlər aparılmaqla, bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanlarına və ya hərbi hissələrə göndərilir. *Həmin şəxslər hərbi qeydiyyatdan çıxarıldıqdan sonra xidmət etdikləri bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanlarında xüsusi qeydiyyata alınırlar.*[9]
3.20. Hərbi qulluqçunun həqiqi hərbi xidmətdən buraxılması ilə əlaqədar bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanları və ya hərbi hissənin əmri ilə şəxsi heyətin siyahısından çıxarıldığı gün bağlaşma əsasında hərbi

xidmətə könüllü daxil olanların həqiqi hərbi xidmətinin sonu hesab edilir.

3.21. Bağlaşma əsasında həqiqi hərbi xidmətdə olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər törədilmiş cinayətə görə Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarma növündə cəzaya məhkum edildikdə və ya onlarla bağlaşma ləğv olunduqda, həqiqi hərbi xidmətdən istefaya buraxılırlar.

3.22. Həqiqi hərbi xidmətə könüllü daxil olmuş hərbi qulluqçulara, hərbi vəzifəlilərə və qadınlara ( *hərbi qulluqçu hazırlayan* xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları istisna olmaqla), həmçinin əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə onların qəbul olunduğu həqiqi hərbi xidmətin növündən asılı olaraq, şəxsiyyəti təsdiq edən xidməti vəsiqələr verilir.

3.23. Hərbi qulluqçular “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 41-ci və 42-ci maddələrinə əsasən ehtiyata və ya istefaya buraxıldıqda, həmçinin həlak olması, ölməsi, itkin düşməsi və məhkəmənin qərarı ilə ölmüş elan edilməsi ilə əlaqədar şəxsi heyətin siyahısından çıxarıldıqda, bağlaşma ləğv olunmuş hesab edilir.

3.24. Bağlaşmanı imzalanmaqdan imtina edildiyi halda, toplanmış sənədlər müvafiq qaydada məhv edilir. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli *baş idar*ə, idarə, şöbə və bölmələrindən, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdən götürülmüş şəxsi işlər həmin orqanlara qaytarılır.

3.25. Bağlaşma əsasında həqiqi hərbi xidmətin müddətləri “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun 38-ci maddəsinə əsasən aşağıdakı kimi təqvim hesabı ilə müəyyənləşdirilir:

3.25.1. müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün: müddətli həqiqi hərbi xidmətdən daxil olanlar, ehtiyatdan daxil olanlar və qadınlar - 3 il. Bu müddət bitdikdə, müddətdən artıq həqiqi hərbi xidmət tərəflərin razılığı ilə həqiqi hərbi xidmətdə olmağın son yaş həddinə çatanadək hər dəfə 5 ilədək müddətə uzadılır;

3.25.2. gizirlər və miçmanlar üçün - 5 il. Bu müddət tərəflərin razılığı ilə həqiqi hərbi xidmətdə olmağın son yaş həddi çatanadək, hər dəfə 5 ilədək müddətə uzadılır;

3.25.3. ehtiyatdan bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan zabitlər üçün - 1 il 6 ay. Bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə onlar kadr zabit heyətinə keçirilirlər;

3.25.4. bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər - 3 ilədək. Bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə yeni bağlaşma bağlanılır.

## 4. Yekun müddəalar

4.1. Bu Qaydanın 3.1-ci bəndində göstərilmiş müvafiq dövlət orqanlarında və hərbi hissələrdə həqiqi hərbi xidmətə könüllü daxil olan şəxslər Azərbaycan Respublikasının “Hərbi vəzifə və hərbi xidmət haqqında” və “Hərbi qulluqçuların statusu haqqında” qanunlarına, “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”yə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinə və digər qanunvericilik aktlarına müvafiq olaraq həqiqi hərbi xidmət keçir, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları üçün nəzərdə tutulmuş hüquq və imtiyazlardan istifadə edirlər.

4.2. Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxil olan hərbi qulluqçuların hərbi vəzifələrinin yerinə yetirilməsi ilə bağlı tədbirlərin maddi təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin, habelə təşkilatların vəsaiti hesabına “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

“Bağlaşma əsasında həqiqi hərbi
xidmətə daxilolmanın halları və
Qaydası”na
**1 nömrəli əlavə**

***Azərbaycan Ordusunda* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə*, habelə Azərbaycan Respublika-sının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)* hərbi xidmətə qəbul haqqında** [10]

**B A Ğ L A Ş M A**

“_____” ________________ 20 ______ il

Biz, aşağıda imza edənlər, bir tərəfdən __________________________________________
(hərbi hissənin və ya müvafiq dövlət orqanının adı)

komandiri (rəisi)__________________________________________________________şəxsində
(hərbi rütbəsi, soyadı, adı, atasının adı)

Azərbaycan Respublikasının müvafiq dövlət orqanı, digər tərəfdən

__________________________________________________________________________
(bağlaşma bağlayan şəxsin hərbi rütbəsi, soyadı, adı, atasının adı)

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununu, “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”ni və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrini rəhbər tutaraq aşağıdakı bağlaşmanı bağladıq.

1. Tərəflər aşağıdakı öhdəlikləri qəbul edirlər:

1.1. mən,

______________________________________________________________________

(bağlaşma bağlayan şəxsin hərbi rütbəsi, soyadı, adı, atasının adı)

*Azərbaycan Ordusuna* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə, *habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)* bağlaşma üzrə könüllü surətdə hərbi xidmətə daxil olarkən: [11]

1.1.1. *Azərbaycan Ordusunda* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, *habelə Azərbaycan Respublika-sının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)* ______________ il müddətində

____________________________________

(hərbi hissənin və ya müvafiq dövlət orqanının adı, heyəti)

vəzifəsində xidmət etməyi;

1.1.2. bağlaşma üzrə hərbi xidmətdə olduğum müddətdə mənə həvalə edilmiş xidməti vəzifələri həmişə namus və vicdanla yerinə yetirməyi;

1.1.3. komandanlığın əmr, sərəncam və tələblərini yerinə yetirməyi;

1.1.4. Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin, təlimatların tələblərini, komandir və rəislərin əmrlərini, sərəncamlarını, mənə tapşırılan xidməti vəzifələri şərəf və vicdanla yerinə yetirəcəyimi;

1.1.5. törətdiyim hüquqazidd əməllərə görə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada tam məsuliyyət daşımağı öhdəmə götürürəm.

1.2. Azərbaycan Respublikasının müvafiq dövlət orqanı:

1.2.1. ______________________________________________________________

(bağlaşma bağlayan şəxsin hərbi rütbəsi, soyadı, adı, atasının adı)

və onun ailə üzvləri üçün *Azərbaycan Ordusunun* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin, *habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların)* hərbi qulluqçuları üçün nəzərdə tutulmuş hüquqi müdafiəni, sosial zəmanət və güzəştləri təmin etməyi; [12]

1.2.2. hər ay ştat vəzifəsi üzrə müəyyən olunmuş pul vəsaiti ilə təmin etməyi;

1.2.3. “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”nin tələblərinə və müəyyən olunmuş qaydaya əsasən növbəti və digər məzuniyyətlər verməyi;

1.2.4. hərbi qanunvericiliklə müəyyən olunmuş qaydada hərbi qulluqçular üçün nəzərdə tutulan təminat hüquqlarını təmin etməyi öhdəsinə götürür.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli qərarı ilə təsdiq edilmiş “Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası”nın 3.23-cü bəndində göstərilən hallar mövcud olduqda, bağlaşma ləğv edilir.

3. Bağlaşmanın qüvvədə olma müddəti bağlaşma Azərbaycan Respublikasının müvafiq dövlət orqanı tərəfindən təsdiq edildiyi andan başlayır və həmin şəxsin şəxsi heyətin siyahısından çıxdığı gün qüvvədən düşmüş hesab edilir.

4. Bağlaşmanın müddətinin bitməsinə ən azı üç ay qalmış tərəflər yeni bağlaşmanın imzalanmasına və ya bağlaşmanın bitməsinə dair qarşılıqlı olaraq bir-birini məlumatlandırmağı öhdələrinə götürürlər.

5. Bu bağlaşma hər biri eyni hüquqi qüvvəyə malik olan üç nüsxədə tərtib edilir.

| | |
|---|---|
| Azərbaycan Respublikasının müvafiq dövlət orqanı______________________________ | Bağlaşma bağlayan şəxs ______________________________ |
| (hərbi hissənin və ya müvafiq dövlət orqanının adı) | (hərbi rütbəsi, imzası, soyadı, adı, atasının adı) |
| Müvafiq dövlət orqanının rəhbəri ______________________________ | ______________________________ |

(hərbi rütbəsi, imzası, soyadı, adı)

M.Y.

**6. Həqiqi hərbi xidmətin müddətinin uzadılması**

6.1. *Azərbaycan Ordusunda* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, *habelə Azərbaycan Respublika-sının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)* ______________________________

(hərbi qulluqçu heyəti )

vəzifələrində həqiqi hərbi xidmət müddətimi ______________________________il

(rəqəm və yazı ilə)

“___”_________20___ ilədək artırmağınızı xahiş edirəm.

Azərbaycan Respublikasının müvafiq dövlət orqanı ______________________________

(hərbi hissənin və ya müvafiq dövlət orqanının adı)

Bağlaşma bağlayan şəxs ______________________________

(hərbi rütbəsi, imzası, soyadı, adı və atasının adı)

Müvafiq dövlət orqanının rəhbəri ______________________________

______________________________

(hərbi rütbəsi, imzası, soyadı adı)

M.Y.

“Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası”na
**2 nömrəli əlavə**

***Azərbaycan Ordusunda* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, *habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)* hərbi xidmətə qəbul haqqında**[13]

**Ö H D Ə L İ K**

______________________________

(hərbi hissənin və ya müvafiq dövlət orqanının adı)

Mən, aşağıda imza edən______________________________

(hərbi rütbəsi, soyadı, adı, atasının adı)

“Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu, “Hərbi xidmətkeçmə haqqında Əsasnamə” və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələri ilə tanış olaraq,

______________________________

(hərbi xidmətin növü)

həqiqi hərbi xidmətə könüllü daxil olarkən öhdəlik götürürəm:

a) *Azərbaycan Ordusunda* və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, *habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)*

______________________________ ______________________________

(hərbi qulluqçuların heyəti) (rəqəm və yazı ilə)

qulluq etməyə;

b) ______________________________ həqiqi hərbi

(hərbi xidmətin növü)

xidmətdə olarkən, Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin, təlimatların tələblərini, komandir və rəislərin əmrlərini, sərəncamlarını, mənə tapşırılan xidməti vəzifələri şərəf və vicdanla yerinə yetirəcəyəm.

_______________________________________________________________

(hərbi rütbəsi, imzası)

"___"_______________20 _____il

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 06 may 2015-ci il tarixli **174** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 658**)
2. 29 avqust 2016-cı il tarixli **320** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 sentyabr 2016-cı il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1456**)
3. 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** )
4. 10 aprel 2017-ci il tarixli **133** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 aprel 2017-ci il, 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 620**)
5. 30 dekabr 2021-ci il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**)
6. 05 avqust 2022-ci il tarixli **284** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 8 avqust 2022-ci il, "Xalq" qəzeti, 10 avqust 2022-ci il, 168, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 973**)
7. 9 avqust 2022-ci il tarixli **290** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 10 avqust 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 979** )
8. 25 avqust 2022-ci il tarixli **333** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 31 avqust 2022-ci il, "Xalq" qəzeti, 2 sentyabr 2022-ci il, 188, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 1020**)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 10 aprel 2017-ci il tarixli **133** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 aprel 2017-ci il, 75 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 620**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 1.2-ci, 2.1-ci, 2.2-ci, 2.8-ci, 3.12-ci və 3.13-cü bəndlərdə ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Silahlı Qüvvələri**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Ordusu**" sözləri ilə əvəz edilmişdir.

06 may 2015-ci il tarixli **174** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 658**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2.10.2-ci yarımbəndə (birinci halda), 3.2-ci və 3.22-ci bəndlərə "**xüsusi təyinatlı**" sözlərindən əvvəl "**hərbi qulluqçu hazırlayan**" sözləri əlavə edilmişdir.

30 dekabr 2021-ci il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 1.2-ci bəndinə "**silahlı birləşmələrə**" sözlərindən sonra "**, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)**" sözləri əlavə edilmişdir.

[2] 30 dekabr 2021-ci il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2.1-ci və 2.2-ci bəndlərinə "**silahlı birləşmələrdə**" sözlərindən sonra "**, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)**" sözləri əlavə edilmişdir.

[3] 9 avqust 2022-ci il tarixli **290** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 10 avqust 2022-ci il, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 979** ) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"na yeni məzmunda 2.5-1-ci bənd və 3.7.2-1-ci, 3.9.4-1-ci yarımbəndlər əlavə edilmişdir.

[4] 30 dekabr 2021-ci il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2.8-ci, 3.12-ci və 3.13-cü bəndlərinə "**silahlı birləşmələr**" sözlərindən sonra "**, habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar)**" sözləri əlavə edilmişdir.

[5] 06 may 2015-ci il tarixli **174** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 658**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2.10.2-ci yarımbənddə "**19**" rəqəmi "**20**" rəqəmi ilə əvəz edilsin və həmin yarımbəndə "**hərbi qulluqçular**" sözlərindən sonra "**və hərbi vəzifəlilər**" sözləri əlavə edilmişdir.

06 may 2015-ci il tarixli 174 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 658**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2.10.2-ci yarımbəndə (birinci halda), 3.2-ci və 3.22-ci bəndlərə "**xüsusi təyinatlı**" sözlərindən əvvəl "**hərbi qulluqçu hazırlayan**" sözləri əlavə edilmişdir.

[6]
22 sentyabr 2016-cı il tarixli 360 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.1-ci bəndindən "**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə**," sözləri çıxarılmışdır və həmin bəndə "**Fövqəladə Hallar Nazirliyinə**," sözlərindən sonra "**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə**," sözləri əlavə edilmişdir.

06 may 2015-ci il tarixli 174 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 658**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2.10.2-ci yarımbəndə (birinci halda), 3.2-ci və 3.22-ci bəndlərə "**xüsusi təyinatlı**" sözlərindən əvvəl "**hərbi qulluqçu hazırlayan**" sözləri əlavə edilmişdir.

30 dekabr 2021-ci il tarixli 418 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.1-ci bəndində "**və**" sözü (birinci halda) vergül işarəsi ilə əvəz edilmişdir və həmin bəndə "**Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna**" sözləri əlavə edilmişdir.

25 avqust 2022-ci il tarixli 333 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 31 avqust 2022-ci il, "Xalq" qəzeti, 2 sentyabr 2022-ci il, 188, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 1020**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.1-ci bəndində "**Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə**" sözləri "**Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinə, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinə**" sözləri ilə əvəz edilmişdir.

[7]
05 avqust 2022-ci il tarixli 284 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet saytı, 8 avqust 2022-ci il, "Xalq" qəzeti, 10 avqust 2022-ci il, 168, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 8, maddə 973**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.2-ci bəndinin birinci cümləsinə, 3.3-cü, 3.18-ci bəndlərinə, 3.19-cu bəndinin birinci cümləsinə, 3.24-cü bəndinin ikinci cümləsinə "**yerli**" sözündən sonra "**baş idarə,**" sözləri əlavə edilmişdir.

[8]
29 avqust 2016-cı il tarixli 320 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 3 sentyabr 2016-cı il, 193, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1456**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.9.2-ci yarımbəndinə "**xüsusilə ağır**" sözlərindən sonra "**, habelə hərbi xidmət əleyhinə**" sözləri əlavə edilmişdir.

[9]
06 may 2015-ci il tarixli 174 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 658**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.19-cu bəndə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[10]
10 aprel 2017-ci il tarixli 133 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 aprel 2017-ci il, 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 620**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul haqqında Bağlaşma"nın adında, 1.1-ci, 6.1-ci bəndlərində, 1.1.1-ci yarımbəndində ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Silahlı Qüvvələri**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Ordusu**" sözləri ilə, 1.2.1-ci yarımbəndində "**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin**" sözləri "**Azərbaycan Ordusunun**" sözləri ilə əvəz edilmişdir.

06 may 2015-ci il tarixli 174 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 658**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2.10.2-ci yarımbəndə (birinci halda), 3.2-ci və 3.22-ci bəndlərə "**xüsusi təyinatlı**" sözlərindən əvvəl "**hərbi qulluqçu hazırlayan**" sözləri əlavə edilmişdir.

30 dekabr 2021-ci il tarixli 418 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 1 nömrəli əlavə - "Azərbaycan Ordusunda və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul haqqında Bağlaşma"nın adına, 1.1.1-ci yarımbəndinə və 6.1-ci bəndinə "**silahlı birləşmələrdə**" sözlərindən sonra **", habelə Azərbaycan Respublika-sının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)"** sözləri əlavə edilmişdir.

[11]
30 dekabr 2021-ci il tarixli 418 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 1 nömrəli əlavə - "Azərbaycan Ordusunda və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul haqqında Bağlaşma"nın 1.1-ci bəndinə "**silahlı birləşmələrə**" sözlərindən sonra **", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)"** sözləri əlavə edilmişdir.

[12]
30 dekabr 2021-ci il tarixli 418 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 1 nömrəli əlavə - "Azərbaycan Ordusunda və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul haqqında Bağlaşma"nın 1.2.1-ci yarımbəndinə **"silahlı** birləşmələrin" sözlərindən sonra **", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların)"** sözləri əlavə edilmişdir.

[13]
10 aprel 2017-ci il tarixli 133 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 12 aprel 2017-ci il, 75, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 4, maddə 620**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul haqqında öhdəliy"in adında və "a" bəndində **"Azərbaycan Respublikasının Silahlı**

**Qüvvələrində**" sözləri "**Azərbaycan Ordusunda**" sözləri ilə əvəz edilmişdir.

06 may 2015-ci il tarixli **174** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti, 17 may 2015-ci il, 104, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, 5, maddə 658**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2.10.2-ci yarımbəndə (birinci halda), 3.2-ci və 3.22-ci bəndlərə "**xüsusi təyinatlı**" sözlərindən əvvəl "**hərbi qulluqçu hazırlayan**" sözləri əlavə edilmişdir.

30 dekabr 2021-ci il tarixli **418** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 7 yanvar 2022-ci il, 2 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 12, maddə 1542**) ilə "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 2 nömrəli əlavə - "Azərbaycan Ordusunda və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə hərbi xidmətə qəbul haqqında Öhdəlik"in adına və "a" bəndinə "**silahlı birləşmələrdə**" sözlərindən sonra **", habelə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər d övlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)"** sözləri əlavə edilmişdir.